# GÜRCÜSTAN

SAYI 51-52 (13.421)
CÜMƏ 4 İYUL 2025-ci il

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული გაზეთი

E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


## İRAKLİ KOBAXİDZE ABİTURİYENTLƏRƏ MÜRACİƏT EDİB



***Gürcüstanın Baş naziri İrakli Kobaxidze ölkənin abituriyentlərinə müraciət edərək onlara yeni imtahan mərhələsində uğurlar arzulayıb və onların səylərinin ölkənin gələcəyi üçün xüsusi əhəmiyyətini vurğulayıb.***

Baş nazirin sözlərinə görə, Gürcüstanın gələcəyi yalnız savadlı cəmiyyətə əsaslanır və hər bir gəncin şəxsi inkişafı bütövlükdə ölkənin inkişafına xidmət edir.

*"Möhtərəm abituriyentlər, bu gün həyatınızda ən vacib və ən məsuliyyətli mərhələ başlayır. Vahid Milli İmtahanlar sizin illərlə davam edən zəhmətinizin kulminasiyasıdır. Əminəm ki, hər biriniz bu mərhələyə layiqincə, bilik və bacarıqlarınızı tam səfərbər edərək yanaşacaqsınız.*

*Ölkəmizin gələcəyi, onun inkişafı və rifahı yalnız savadlı cəmiyyətə əsaslanır. Buna görə də hər addımınız – şəxsi inkişafınıza doğru atılan hər addım – eyni zamanda Gürcüstanın daha yaxşı sabahına atılan addımdır.*

*Sizə bu yeni və maraqlı yolda uğurlar və bütün məqsədlərinizə çatmağı arzulayıram,"* – deyə İrakli Kobaxidze müraciətində bildirib.

## YENİ TƏHSİL NAZİRİ TƏYİN OLUNUB

***Gənclər, Elm və Təhsil Nazirliyində kadr dəyişikliyi baş verib.***

Baş nazir İrakli Kobaxidze keçirdiyi brifinqdə Qivi Mikanadzeni yeni nazir kimi ictimaiyyətə təqdim edib. O, bu vəzifədə Aleksandre Tsuladzeni əvəz edəcək.

Bildiririk ki, Q. Mikanadze Gürcüstan parlamentinin Təhsil, elm və gənclərlə iş üzrə komitəsinin sədri olub.

Baş nazir Aleksandre Tsuladzeyə indiyədək göstərdiyi fəaliyyətə görə təşəkkürünü bildirib.

Qeyd edək ki, Aleksandre Tsuladze 30 iyun tarixində vəzifəsindən istefa verdiyini açıqlayıb. O, qərarını sosial şəbəkə vasitəsilə ictimaiyyətə çatdırıb.



Aleksandre Tsuladze Gənclər, Elm və Təhsil naziri postuna 2024-cü il oktyabrın 2- də təyin olunmuşdu. Təyinatı Baş nazir İrakli Kobaxidze tərəfindən təqdim edilmişdi. A. Tsuladze nazir təyin olunmazdan əvvəl eyni nazirlikdə birinci müavin vəzifəsini icra edirdi. O, bu vəzifədə Qiorqi Amilaxvarini əvəz etmişdi.

## ŞALVA PAPUAŞVİLİ: "AVROPA İTTİFAQININ SƏFİRLİYİ HAKİMİYYƏTİN DEVRİLMƏSİNƏ ÇAĞIRAN AKSİYALARI MALİYYƏLƏŞDİRİR – BU, FƏLAKƏTDİR"

***Avropa İttifaqının və onun Gürcüstandakı səfirliyinin maliyyə dəstəyi ilə keçirilən aksiyalarda açıq şəkildə hakimiyyətin devrilməsinə çağırışlar səsləndirilməsi "fəlakət"dir.***



Bu barədə Parlamentin sədri Şalva Papuaşvili jurnalistlərlə söhbətində bildirib.

*"Dünən biz Avropa İttifaqının maliyyələşdirdiyi bir aksiyanı gördük, orada açıq və birbaşa hakimiyyətin devrilməsinə çağırışlar edildi. Bu, fəlakətdir ki, Aİ səfirliyi belə aksiyaları maliyyələşdirir, harada ki, devirməyə, cəzalandırmağa, döyüşçülərin küçələrə çıxarılmasına çağırışlar eşidilir. Bu, onların özlərini gətirdiyi dalandır – o cümlədən Aİ səfirliyinin öz gizli maliyyəsi ilə. Biz bir dəfə də olsun onlardan aydın cavab ala bilmədik ki, konkret kimləri və nə məqsədlə maliyyələşdirirlər. İndi isə bütün məsuliyyət Brüsselə və buradakı səfirliklərə düşür.*

*Fakt ortadadır – Avropa İttifaqının maliyyəsi ilə hakimiyyətin devrilməsinə çağıran aksiya keçirildi. İndi onlar özləri düşünsünlər: necə izah edəcəklər ki, Aİ vətəndaşlarının pulu ilə başqa bir ölkədə hakimiyyətin devrilməsi planlaşdırılır. Bu artıq onların problemidir. Fakt odur ki, bu gün Brüssel Avropa dəyərlərinin anlamından tamamilə uzaqlaşıb. Təəssüf ki, ekstremizm Avropa İttifaqının büdcəsindən, Avropa vətəndaşlarının maraqlarına zidd şəkildə maliyyələşdirilir.*

*Həqiqətən də heyrətamiz və təəccüblüdür: biz Avropa dəyərləri sifariş verdik, amma bizə Avropa ekstremizmi gəldi,"* – deyə Şalva Papuaşvili bildirib.

## BMT-DƏN RUSİYA - AZƏRBAYCAN GƏRGİNLİYİNƏ REAKSİYA

***"BMT Rusiya ilə Azərbaycan arasında artan gərginlikdən xəbərdardır".***

Bunu BMT-nin Baş katibinin nümayəndəsi Stefan Dyujarrik deyib.

O həmçinin Moskva və Bakının mübahisələri diplomatik yolla həll edəcəklərinə ümid etdiyini bildirib.

*"Biz hər iki ölkədə insidentlərlə müşayiət olunan Azərbaycan və Rusiya arasında artan gərginlikdən xəbərdarıq. Ümid edirik ki, hər şey diplomatik kanallarla həll oluna biləcək və jurnalist fəaliyyəti azadlığı təmin olunacaq",* - deyə o qeyd edib.

Xatırladaq ki, iyunun 27-də güc strukturlarının əməkdaşları Yekaterinburqda azərbaycanlılara qarşı reydlər keçirib. Reyd zamanı iki nəfər ölüb, daha bir neçə nəfər yaralanıb. "E1" nəşri 50-yə yaxın saxlanılanın olduğu barədə məlumat verib.

## GÜRCÜSTAN PARLAMENTİ QANUNSUZ MİQRASİYAYA QARŞI YENİ MEXANİZMLƏRİ NƏZƏRDƏ TUTAN QANUN LAYİHƏSİNİ İLK OXUNUŞDA TƏSDİQLƏYİB

***Gürcüstan parlamenti xüsusi çağırışlı sessiyanın plenar iclasında "Xaricilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" qanuna dəyişikliklər sürətləndirilmiş qaydada birinci oxunuşda müzakirə edib və 81 səslə dəstəkləyib.***

Bu barədə parlamentin mətbuat xidməti məlumat yayıb.

Layihənin təqdimatçısı, Hüquqi məsələlər komitəsi sədrinin birinci müavini Tornike Çeişvilinin sözlərinə görə, qanun layihəsi qeyri-leqal miqrasiyanın aşkarlanması məqsədilə yaşayış və ya digər şəxsi mülkiyyətin yoxlanılması qaydasını müəyyən edir.



*"Qanuna Gürcüstanda qanuni əsas olmadan qalan əcnəbinin aşkarlanması və ya onun yaşayış yerinin yoxlanılması, yaxud əcnəbinin səfər sənədinin tapılması məqsədilə Daxili İşlər Nazirliyinin səlahiyyətli orqanına əcnəbinin yaşayış və ya iş yerini yoxlamaq və ya digər şəxsi mülkiyyətə daxil olmaq imkanı verən maddə əlavə olunur, amma yalnız rayon və ya şəhər məhkəməsinin hakiminin müvafiq qərarı əsasında",* – deyə Tornike Çeişvili bildirib.

O qeyd edib ki, təcili zərurət yarandığı halda – əgər gecikmə əcnəbinin gizlənməsinə, yaxud onun sənədinin məhv edilməsinə və ya gizlədilməsinə səbəb ola bilərsə – Daxili İşlər Nazirliyinin səlahiyyətli orqanı dərhal yoxlama apara bilər və 24 saat ərzində bununla bağlı məhkəməyə müraciət etmək öhdəliyində olacaq.

Qanun layihəsinə əsasən, əcnəbinin yaşayış və ya iş yerinin yoxlanılması zamanı polis həmin şəxsi sorğu-sual etmək, identifikasiya etmək, səthi yoxlama aparmaq, ərazini nəzərdən keçirmək və Gürcüstan qanunvericiliyində nəzərdə tutulan digər preventiv və məcburi tədbirlər həyata keçirmək hüququna malik olacaq.

## TRAMP SURİYAYA QARŞI SANKSİYALARI LƏĞV EDİB

***ABŞ prezidenti Donald Tramp Suriyaya qarşı qüvvədə olan sanksiyaların ləğv olunması haqda fərman imzalayıb.***

Ağ Evin mətbuat katibi Kerolayn Levitt jurnalistlərə açıqlamasında bildirib ki, amerikalı liderin bu addımı ölkənin sabitliyə və sülhə aparan yolunun təşviqinə və dəstəklənməsinə hədəflənib.

Qeyd edək ki, ötən ay Ağ Ev rəhbəri Suriyanın lideri Əhməd əş-Şəraa ilə görüşü zamanı ölkəyə qarşı sanksiyaların ləğv olunacağını elan etmişdi. Bunun üçün Tramp yeni Suriya rəhbərliyinin qarşısına bir sıra şərtlər qoymuşdu. Həmin şərtlərə Suriyanın qonşuları, o cümlədən İsraillə münasibətləri normallaşdırması daxil idi.

## PARLAMENT 12 DEPUTATIN MANDATINA XİTAM VERİB

***Parlamentdə keçirilən növbədənkənar sessiyanın plenar iclasında "Gürcüstan Naminə" partiyasının 12 üzvünün deputat mandatına vaxtından əvvəl xitam verilməsi məsələsi dəstəklənib.***

Bu barədə məlumatı parlamentin Prosedur Məsələləri Komitəsi yayıb.

Qeyd olunub ki, Mərkəzi Seçki Komissiyasının 2024-cü il parlament seçkiləri ilə bağlı yekun protokoluna əsasən, seçki baryerini keçmiş partiyalar sırasında yer alan "Gürcüstan Naminə" partiyası parlamentdə 12 mandat əldə edib, lakin deputatlar bu yerlərdən istifadə etməyiblər.

Komitənin açıqlamasına görə, adıçəkilən partiyanın nümayəndələri yaz sessiyası çərçivəsində keçirilmiş bütün 26 iclasda iştirak etməyiblər və bu, əsassız səbəb kimi qiymətləndirilib.

Parlamentin reqlamentinə əsasən, əgər bir deputat növbəti sessiyanın iclaslarının yarıdan çoxunu üzrsüz səbəbdən buraxarsa, onun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi məsələsi gündəmə gətirilə bilər.

Bununla əlaqədar parlamentdə hər 12 deputat üzrə fərdi qaydada səsvermə keçirilib və nəticədə onların hamısının deputat səlahiyyətlərinə xitam verilməsi qərara alınıb.

## TBİLİSİDƏ AZƏRBAYCANDİLLİ MƏKTƏBLƏRİN MÜƏLLİMLƏRİNİN II QURULTAYI KEÇİRİLİB



*İyunun 28-də Tbilisidə Gürcüstanda fəaliyyət göstərən azərbaycandilli məktəblərin müəllimlərinin II Qurultayı keçirilib.*

Qurultayda azərbaycandilli məktəblərdə çalışan müəllimlərlə yanaşı, Gürcüstanın dövlət qurumlarının, diplomatik nümayəndəliklərin və təhsil sahəsində fəaliyyət göstərən müxtəlif təşkilatların nümayəndələri iştirak ediblər.

Tədbirdə birinci qurultaydan keçən dövrdə görülən işlər, qazanılan uğurlar və qarşıda duran vəzifələr müzakirə olunub.

Qurultayın sədri, "Maarif" təşkilatının rəhbəri, iqtisadiyyat üzrə fəlsəfə doktoru Aygül İsayeva hesabatla çıxış edib. O, Azərbaycandilli məktəblərdə tədrisin vəziyyəti, ikidilli təhsil sisteminin təkmilləşdirilməsi və müəllimlərin peşəkar inkişafı istiqamətində görülən işlər barədə ətraflı məlumat verib.

Bildirib ki, 2023-cü ildə keçirilmiş ilk qurultaydan sonra azərbaycandilli məktəblərin müəllimlərinin qarşılaşdığı bir sıra problemlərin həlli istiqamətində mühüm addımlar atılıb, müəyyən uğurlar qazanılıb.

Azərbaycanın Gürcüstandakı səfirliyinin məsul əməkdaşı Cavid Məhərrəmov, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə müdirinin müavini Şəfəq Binnətova, Gürcüstan parlamentinin təhsil elm və gənclərlə iş üzrə komitəsinin əməkdaşı Elene Vekua, Gürcüstanın Müəllimlər Evi, Qeyri-Gürcüdilli Məktəblərə Dəstək Proqramının meneceri Nino Berikaşvili və digərləri çıxış edərək qurultayın işinə uğurlar arzulayıb və bildiriblər ki, bu cür tədbirlər təhsilə, gənclərin inkişafına böyük təkan verir.

Daha sonra qurultay panel iclaslarla öz işini davam etdirib.

## ABİTURİYENTLƏR ÜÇÜN ƏLAVƏ AVTOBUS MARŞRUTLARI TƏYİN EDİLƏCƏK

***2025-ci il 3 iyuldan 1 avqusta qədər abituriyentlər və imtahan prosesinə cəlb olunmuş şəxslər üçün əlavə avtobus marşrutları fəaliyyət göstərəcək.***

Bu barədə Tbilisi meri Kaxa Kaladze bələdiyyə hökumətinin iclasında bildirib.

K. Kaladzenin sözlərinə görə, imtahan günlərində avtobuslar imtahan mərkəzlərinə gedən marşrutlarda səhər saat 06:00-dan axşam 20:00-dək hərəkət edəcək və sərnişinlərə standart tariflə xidmət göstərəcək.

*"Milli imtahanlar yaxınlaşır. İmtahan iştirakçılarına uğurlar arzulayıram və onlara vacib məlumatı çatdırmaq istəyirəm. 3 iyuldan 1 avqusta qədər, Qiymətləndirmə və İmtahanlar Milli Mərkəzinin təyin etdiyi imtahan dövründə, imtahan mərkəzlərinə çatmaq üçün abituriyentlər və imtahan prosesinə cəlb olunmuş şəxslər üçün əlavə avtobus marşrutları təşkil olunacaq"*, – deyə Kaladze bildirib.

Belə ki, 39, 175, 177 və 199 nömrəli məktəblərə gedən avtobus marşrutları Aleksandre Gobronidze və Vekua küçələrinin kəsişməsindən (metronun "Axmeteli Teatrı" stansiyasının yaxınlığı) başlayacaq. 147 nömrəli məktəbə gedən avtobuslar "Didube"nin aşağı çıxışından (Anzor Abulaşvili küçəsi), 103 nömrəli məktəbə gedən avtobuslar isə "Samgori"nin yuxarı çıxışından (Kaxeti şosesi) hərəkət edəcək.

İmtahan prosesi 39, 103, 175, 177 və 199 nömrəli məktəblərdə 23 iyula qədər, 147 nömrəli məktəbdə isə 1 avqusta qədər davam edəcək.

## MAY AYINDA GÜRCÜSTAN İQTİSADİYYATI ARTIB

***2025-ci ilin may ayında ölkənin real ümumi daxili məhsulu (ÜDM) ötən ilin eyni dövrü ilə müqayisədə 7.5 faiz artıb.***

Bu barədə Milli Statistika Xidməti məlumat yayıb.

"Sakstat"ın yaydığı məlumatda bildirilir ki, may ayında iqtisadi artıma əsas töhfə verən sahələr informasiya və kommunikasiya, emal sənayesi, ticarət, nəqliyyat və anbar təsərrüfatı, eləcə də tikinti sektoru olub.

Bununla yanaşı, hesabatda qeyd edilir ki, enerji sektorunda azalma tendensiyası qeydə alınıb.

Məlumata əsasən, 2025-ci ilin ilk beş ayı üzrə orta artım tempi ümumilikdə 8.8 faiz təşkil edib.



## RUSİYANIN OMBUDSMANI BAŞ PROKURORLUQDAN YEKATERİNBURQDA SAXLANILANLARIN YOXLANILMASINI XAHİŞ EDİB



***Rusiyanın insan hüquqları üzrə müvəkkili Tatyana Moskalkova Yekaterinburqda saxlanılmalarla bağlı Azərbaycan Ombudsmanı Səbinə Əliyevadan müraciət aldığını və bu məsələ ilə əlaqədar Rusiya Baş Prokurorluğuna müraciət etdiyini bildirib.***

Bu barədə o, öz teleqram kanalında yazıb.

*"Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva iyunun 27-də Rusiyada Azərbaycan diaspor nümayəndələrinin saxlanılması, ölümü və xəsarətlər alması ilə bağlı halların araşdırılması barədə mənə müraciət edib. Rusiya Baş Prokurorluğuna saxlanılmanın qanuniliyi və əsaslılığının, cinayət törətməkdə şübhəli bilinən şəxslərin və zərərçəkənlərin hüquqlarına riayət olunmasının yoxlanılması ilə bağlı vəsatətlə müraciət etmişəm"*, - deyə o qeyd edib.

Onun sözlərinə görə, Yekaterinburqda vəkillər və Azərbaycan diasporunun nümayəndələri ilə sıx əməkdaşlıq edən Sverdlovsk vilayətinin insan hüquqları üzrə müvəkkili Tatyana Merzlyakova ilə daimi əlaqədədir.

## İYULUN 12-DƏN "VARKETİLİ" METROSTANSİYASI 45 GÜN BAĞLI OLACAQ

***"Varketili" metro stansiyası 12 iyuldan etibarən 45 gün müddətinə bağlanacaq.***

Bu barədə Tbilisi meri Kaxa Kaladze bu gün keçirilən Tbilisi hökumətinin iclasında məlumat verib.

K. Kaladzenin sözlərinə görə, stansiyada təmir-bərpa işlərinə başlanılır və bu işlər texnoloji baxımdan sərnişinlərin hərəkəti şəraitində mümkün deyil.

*"Layihəyə əsasən, xüsusi texnoloji proseslərə riayət olunmaqla, kifayət qədər genişmiqyaslı işlərin həyata keçirilməsi nəzərdə tutulur ki, bu da sərnişinlərin hərəkəti şəraitində mümkün deyil. Təhlükəsizlik baxımından biz qərara gəldik ki, "Varketili" metro stansiyası 45 gün müddətinə bağlansın"*, – deyə K. Kaladze bildirib.

Merin sözlərinə görə, layihə "Probuild Ekspert" MMC tərəfindən xarici mütəxəssislərin iştirakı ilə hazırlanıb. Bu stansiyada aparılan təmir - bərpa işlərinin tam şəkildə başa çatdırılması noyabr - dekabr aylarına planlaşdırılıb.

*"Layihəyə əsasən, sərnişinlərin hərəkəti şəraitində həyata keçirilməsi mümkün olmayan genişmiqyaslı işlərin xüsusi texnoloji prosesə uyğun aparılması nəzərdə tutulur. Buna görə də dəmir-beton tağda və eskalator tunelində reabilitasiya işlərinin müddətini minimuma endirmək məqsədilə qərara gəldik ki, "Varketili" metro stansiyası 12 iyuldan etibarən 45 gün müddətinə bağlansın.Təhlükəsizlik baxımından bağlanması zəruridir"*, – deyə Kaxa Kaladze əlavə edib.

## Sitat guşəsi



"Biz kiçik ölkəyik və buna görə də böyük müharibələri qazana bilmərik. Nə böyük, nə də kiçik müharibələrə qarışmaq istəmirik. Belə bir şəraitdə gürcünün Gürcüstan bayrağını yüksək səviyyədə qaldıra biləcəyi və Gürcüstan himnini səsləndirə biləcəyi əsas meydan məhz idmandır".

**İrakli Kobaxidze,**
**Gürcüstanın Baş naziri.**



"İrana nüvə silahı əldə etməyə icazə verilməməlidir. Vaşinqton Tehranın bu silahları əldə etməsinə imkan verməyəcək. Onlar ciddi zərbə aldılar, həmçinin İsrail də. Biz buna 12 günlük müharibə deyirik. Bu, intensiv bir müharibə idi. İran nüvə silahına sahib ola bilməz. Onlar bunu illərdir istəyirlər".

**Donald Tramp,**
**ABŞ-nin Prezidenti.**



"Artıq heç bir ölkə bir-iki sistemlə kifayətlənə bilməz. Biz bütöv bir orqanizm qururuq. Raketlərimiz, radarlarımız, elektron vasitələrimiz insan sinir sistemi kimi işləməlidir."

**R.T. Ərdoğan,**
**Türkiyənin Prezidenti.**



"Bu gün Ermənistanla Azərbaycan arasındakı münasibətlər haqda müzakirə apardıq. Aİ iki ölkə arasında suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına hörmət əsasında münasibətlərin normallaşmasına güclü dəstək verməkdə davam edir.

Bu üç prinsipə alternati mövcud deyil. Biz ikitərəfli normallaşma yolunun irəliləməsindən məmnunuq. Ermənistan və Azərbaycan arasında daha yaxşı münasibətlər regionda dayanıqlı sülhə yol aça bilər".

**Kaya Kallas,**
**Aİ-nin xarici siyasət üzrə ali nümayəndəsi.**



"Rusiyada Azərbaycan vətəndaşlarına qarşı qeyri-insani rəftar faktları baş verdikdən sonra ictimai qəzəb doğurub. Bu vəziyyətdə Azərbaycan Mədəniyyət Nazirliyinin qərarı həm dövlətin, həm də cəmiyyətin mövqeyinə əsaslanır və hüquqi baxımdan legitimdir. Zatulinin ritorikası keçmiş imperiya kompleksi və postsovet dövlətlərinin müstəqil aktor olmasını həzm edə bilməmək sindromunu xatırladır".

**Elçin Mirzəbəyli,**
**Azərbaycan Milli Məclisinin üzvü.**

"İran qətiyyətlə elan edir ki, aparılan məsləhətləşmələrdə qonşu ölkələr ərazilərindən İran əleyhinə hücumlara icazə verilmədiyini və gələcəkdə də icazə verilməyəcəyi bildiriblər".



**İsmayıl Bəqai,**
**İran XİN-in mətbuat katibi.**

## REGİON XƏBƏRLƏRİ

### Rustavi: REGİONAL ADMİNİSTRASİYADA MƏŞVƏRƏT ŞURASININ İCLASI KEÇİRİLİB



***Kvemo Kartli üzrə dövlət müvəkkili Levan Xarabadzenin rəhbərliyi ilə regional administrasiyada Məşvərət Şurasının iclası keçirilib.***

Şura üzvləri gündəliyə daxil olan, bölgənin bütün yeddi bələdiyyəsində həyata keçiriləcək müxtəlif istiqamətli layihələri müzakirə ediblər. Bundan əlavə, bələdiyyələrdə mövcud vəziyyət, problemlər və onların həlli yollarına toxunulub.

Görüşdə dövlət müvəkkilinin müavinləri İlia Calaqaniya, Qiqa Namiçeişvili və Nika Kobaxidze, bələdiyyələrin merləri, Sakrebuloların sədrləri və onların müavinləri iştirak ediblər.

### Saqareco: MERİYANIN TƏŞKİLATÇILIĞI İLƏ TURİZM FORUMU KEÇİRİLİB

***Meriyanın təşkilatçılığı ilə yerli sahibkarlıq subyektləri - mehmanxana, restoran və turizm obyektlərinin nümayəndələri ilə görüş məqsədi daşıyan turizm forumu keçirilib.***



Tədbirin məqsədi həm də Saqareco Bələdiyyəsində turizmin inkişafına dəstək verəcək bələdçi yaratmaq, gəlirləri artırmaq və sektorun əhəmiyyətini artırmaq olub. *"Kaxetiya regionu zəngin və unikal mədəniyyət tarixi, musiqi, rəqs, incəsənət, din, beynəlxalq və yerli əhəmiyyətli çoxsaylı mədəni irs obyektləri, şərabçılıq ənənələrinə malik qorunan ərazilərdir. Bundan əlavə, mövcud iqlim, gürcü xalqının mehriban münasibəti və qonaqpərvərliyi daha çox maraq yaradır. Çətinliklərə gəlincə: dünya səviyyəli məhsulların yaradılması, həm də beynəlxalq səviyyəli yerli turizmə tələbatı artırmaq üçün mədəni sərvətlər qorunub saxlanılmalı və onlar haqqında məlumat artırılmalıdır ki, ziyarətçilərə yüksək keyfiyyətli xidmətlər təklif olunsun, ən təsirli turizm obyektlərinə giriş yolları və müvafiq infrastruktur yaxşılaşdırılsın, özəl sektorla əməkdaşlıq genişləndirilsin - bu, fəal müzakirə və təcrübə mübadiləsinə görə bizim əsas vəzifəmizdir".* – deyə Avtandil Qulikaşvili çıxışı zamanı bildirib.

### Marneuli: GAİM-də TƏDRİS İLİNİN YEKUN TƏDBİRİ KEÇİRİLİB

***Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzində (GAİM) 2024-2025-ci tədris ilinin yekun tədbiri baş tutub.***



Tədbiri GAİM-in icraçı direktoru Murad Muradov açıb. O, çıxışında təhsilin gənclərin gələcəyindəki roluna diqqət çəkərək, il ərzində mərkəzin təşkil etdiyi təhsil, idman və fərdi inkişaf proqramlarında əldə olunan nailiyyətlərdən söz açıb. Eyni zamanda, tədbir zamanı GAİM-in yeni rəsmi internet saytı – **gaim.ge** təqdim olunub.

Tədbirdə gimnastika kursunun şagirdləri maraqlı çıxışlarla səhnəyə çıxaraq tədbirə rəng qatıblar. Mərkəzin fəaliyyətində fəal iştirak edən könüllülər təşəkkürnamələrlə təltif olunub.

Gənc istedad Rəsul Xəlilov bəstələdiyi rep mahnısı ilə çıxış edərək iştirakçıların böyük maraq və alqışını qazanıb. Sonra güləş üzrə məşğələlərin iştirakçıları texniki nümunələr nümayiş etdirərək öz bacarıqlarını sərgiləyiblər.

Mərkəzin gimnastı və Enquri ansamblının rəqqasəsi Alisa Krivoşeyeva "Ceyran" rəqsi ilə səhnəyə xüsusi rəng qatıb. Cüdo üzrə məşğələ iştirakçıları da səhnədə çeviklik və istedadlarını nümayiş etdiriblər.

Tədbirin sonunda məktəbəqədər hazırlıq kursunun kiçik məzunları üçün məzun günü qeyd olunub. Balacalara diplomlar və hədiyyələr təqdim edilib.

### NAZİR XRAM ÇAYININ SUVARMA SİSTEMİNİN MAGİSTRAL KANALINDA BƏRPA İŞLƏRİNƏ BAŞ ÇƏKİB

***Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı naziri Davit Sonqulaşvili Marneuli meri Kənan Ömərov, Kvemo Kartli üzrə dövlət müvəkkili Levan Xarabadze və Marneuli Sakrebulosunun sədri Amiran Qiorqadze ilə birlikdə Xram çayının suvarma sisteminin magistral kanalında bərpa işləri ilə tanış olublar.***



Sözügedən işlər "Gürcüstan Meliorasiyası" MMC tərəfindən həyata keçirilir. Bərpa olunmuş suvarma sistemindən Bolnisi və Marneuli Bələdiyyələrinin 12 kəndi — Tsurtavi, Farizi, Qızılhacılı , Tamarisi, Tsereteli, Sabirkənd, Alget, Təzəkənd, Əzizkənd, Algeti (üzümçülük təsərrüfatı), Keşəli, Ambarovka, eləcə də Marneuli şəhərinin ətraf ərazisi və sahibkarlıq obyektləri faydalanacaq.

## BEYNƏLXALQ HƏYAT

### İ.MASK: "TRAMP ABŞ-ni BORC KÖLƏLİYİNƏ APARIR"



***İş adamı və milyarder İlon Mask ABŞ Prezidenti Donald Trampın dövlət xərclərinin azaldılması ilə bağlı qanun layihəsini borc köləliyinə aparan yol adlandırıb.***

Mask bunu "X" sosial şəbəkə hesabında yazıb.

Onun sözlərinə görə, təşəbbüs borc səviyyəsini beş trilyon dollar artırır ki, bu da tarixdə ən böyük artımdır.

Maskın fikrincə, qanun layihəsi həm də Amerikada milyonlarla iş yerini məhv edəcək və Birləşmiş Ştatlara böyük strateji ziyan vuracaq.

Qeyd edək ki, Trampın "vahid, böyük qanun layihəsi" adlandırdığı sənəd bir sıra sahələrdə vergilərin və dövlət xərclərinin əhəmiyyətli dərəcədə azaldılmasını nəzərdə tutur.

### İSRAİLİN HÜCUMLARI NƏTİCƏSİNDƏ İRANDA ÖLƏNLƏRİN SAYI 935 NƏFƏRƏ ÇATIB

***İsrail Silahlı Qüvvələrinin İran ərazisinə zərbələri nəticəsində ölənlərin sayı 935 nəfərə çatıb.***



Bu barədə İranın məhkəmə orqanının rəsmi nümayəndəsi Əsgər Cahangir bildirib.

*"İsrailin ABŞ ilə birlikdə hücumları nəticəsində İranda təxminən min nəfər həlak olub. Məhkəmə ekspertizasının son məlumatlarına görə, 935 nəfərin ölümü qeydə alınıb"*, - deyə o qeyd edib.

Onların 38 nəfərini uşaqlar, 102 nəfərini isə qadınlar təşkil edib.

### ZAXAROVA: RUSİYA VƏ AZƏRBAYCAN ARASINDA DOSTLUQ MÜNASİBƏTLƏRİ SON DƏRƏCƏ ƏHƏMİYYƏTLİDİR



***Rusiya və Azərbaycan arasında dostluq münasibətləri son dərəcə əhəmiyyətlidir, onları pozmaq istəyənlər nə etdikləri barədə yaxşı düşünməlidirlər.***

Bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova "Sputnik" radiosunun efirində bildirib.

*"Bu məsələdə sadəcə aranı qatmaq istəyənlər var. Düşünürəm ki, hər iki xalq üçün dostluq münasibətləri son dərəcə vacibdir. Bu münasibətləri pozmaq istəyənlər nə etdikləri barədə yaxşı düşünməlidirlər"*, - deyə o bildirib.

### ENDİRİLƏN ZƏRBƏLƏR NƏTİCƏSİNDƏ QƏZZADA AZI 72 NƏFƏR ÖLÜB

***İyunun 29-da İsrail Ordusunun Qəzza zolağına endirdiyi zərbələr nəticəsində azı 72 nəfər ölüb, çoxlu sayda insan yaralanıb.***



Bu barədə Qətərin "Al Jazeera" telekanalı tibbi mənbələrə istinadən məlumat yayıb.

Onların məlumatına görə, son gün ərzində Qəzza şəhərində 47 fələstinli İsrailin hücumunun qurbanı olub. Telekanal qeyd edib ki, mühasirəyə alınmış anklavda onsuz da fəlakətli humanitar vəziyyət hər gün pisləşdiyi üçün ölənlər arasında yardım paylama mərkəzlərində yemək axtaran insanlar da var.

Xatırladaq ki, martın 18-də İsrail ordusu Qəzza zolağında hərbi əməliyyatları bərpa edərək anklav ərazisinə kütləvi zərbələr endirib və yanvarda qəbul edilmiş atəşkəs rejimini pozub. İsrailin Baş naziri Benyamin Netanyahunun Dəftərxanası bunu Fələstinin radikal HƏMAS hərəkatının vasitəçilər və ABŞ Prezidentinin xüsusi elçisi Stiven Vitkoffun danışıqlar zamanı irəli sürdüyü təkliflərdən imtinası ilə izah edərək bildirib ki, sektordakı əməliyyatın məqsədi bütün girovları azad etməkdir. Radikallar hərbi əməliyyatların yenidən başlamasında İsrail və ABŞ-ni günahlandırıblar.

## GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

www.sak.ge • ელ. ფოსტა: sak@sak.ge

20 iyun 2025-ci il **"SAKARTVELOS RESPUBLİKA"**

## Qadın gözəlliyi və Aşıq Ələsgərin yaradıcılığı


წერილი აზერბაიჯანიდან

ქალის სილამაზე და აშუღ ალესქერის შემოქმედება

პროფესორი ფატმა რასიმ ყიზი

მედიცინის მეცნიერებათა დოქტორმა, პროფესორმა ფატმა რასიმ ყიზი ჰაჯიევამ, რომელიც წარმოშობით ქვემო ქართლის რეგიონიდანაა, იტალიაში გამართულ მეან-გინეკოლოგთა საერთაშორისო სამეცნიერო-პრაქტიკულ კონფერენციაში „გენიტალია-2025" მიიღო მონაწილეობა.

კონფერენციაში ასევე მონაწილეობდნენ მსოფლიოს მრავალი ქვეყნის ცნობილი მეან-გინეკოლოგი, ექიმები და მონათესავე სპეციალობების მკვლევარები. ღონისძიების დროს ფატმა ჰაჯიევამ კოლეგებს გააცნო მის მიერ ჩატარებული კვლევითი სამუშაო სახელწოდებით -ქალის გამოსახულების სამედიცინო-მხატვრული ინტერპრეტაცია აშუღ ალესქერის შემოქმედებაში".

კონფერენციაზე ხაზგასმით აღინიშნა, რომ აშუღ ალესქერის შემკვიდრეობა თავის კვალს ტოვებს არა მხოლოდ პოეზიაში, არამედ მეცნიერების ყველა სფეროში და ის აღიქმება როგორც ეროვნული მეხსიერების მატარებელი.

ღონისძიებაში მონაწილე ზოგიერთმა ექიმ-გინეკოლოგმა მათი სპეციალობის ფარგლებში ახალი ხედვით შესრულებული კვლევითი სამუშაოს ძირითადი მიმართულებები მოიწონა. ფატმა ჰაჯიევამ აშუღის იმ ნაშრომებზე გააკეთა აქცენტი, სადაც ქალის სილამაზეა აღწერილი. ამ ნაწარმოებების ანალიზისას მან მხატვრული დეტალები სამედიცინო ჭრილში წარმოაჩინა. მეცნიერის კვლევითი სამუშაო მოტივირებული იყო როგორც ლიტერატურისადმი მისი ლირიკული და მხატვრული გულისყურით, ასევე ქალის სილამაზისა და ჯანმრთელობისადმი ყურადღებით პროფესიული ინტერესით.

ნარიმან ალიევი.

აშუღი ალესქერი

**Gürcüstanın nüfuzlu "Sakartvelos Respublika" qəzetinin 20 iyun 2025-ci il tarixli sayında soydaşımız Nəriman Əliyevin həmyerlimiz, professor Fatma Haciyevanın İtaliyada keçirilən beynəlxalq elmi – praktik konfransda iştirakına dair məqaləsi dərc olunub. Həmin məqaləni olduğu kimi diqqətinizə təqdim edirik:**

Bu günlərdə əslən saz-söz eli Borçalıdan olan tibb elmləri doktoru, professor Fatma Rasim qızı Hacıyeva İtaliyada keçirilən "Genitaly-2025" adlı mamalıq-ginekologiyaya həsr edilmiş beynəlxalq elmi - praktik konfransda iştirak etmişdir. Burada dünyanın bir çox ölkələrindən tanınmış mama-ginekoloqlar və yaxın ixtisaslardan olan həkimlər, tədqiqatçılar iştirak etmişdir. Fatma Hacıyeva həmin tədbirin gedişatında öz həmkarlarını hazırda apardığı "Aşıq Ələsgər yaradıcılığında qadın obrazının tibbi-bədii interpretasiyası" adlı tədqiqat işi ilə tanış etmişdir. Tədbirdə milli - mənəvi dəyərimiz olan Aşıq Ələsgər irsinin təkcə poeziyada deyil, həm də elmin bütün sahələrində öz izini qoyması, milli yaddaşımızın daşıyıcısı kimi qiymətləndirilib. Tədbirdə iştirak edən bəzi həkim mama-ginekoloqlar ixtisas üzrə, lakin yeni aspektdə aparılan tədqiqat işinin əsas məqamları ilə tanış olmuşlar. Fatma Hacıyeva bədii ədəbiyyatda qadın gözəlliyini vəsf edən Ələsgər yaradıcılığına, bədii nümunələrə bir həkim gözü ilə yanaşaraq, bədii elementlərin tibbi təhlili zamanı əldə etdiyi maraqlı nəticələri onlarla bölüşmüşdür. Alimin bu tədqiqat işinin aparılmasına həm ədəbiyyata olan lirik-bədii marağı, həm də hər gün qadın gözəlliyi və sağlamlığı ilə məşğul olan professional marağı zəmin yaratmışdır.

**Nəriman Əliyev**

2 iyul 2025-ci il **"KVİRİS PALİTRA"**

## Lado Papavanın proqnozu: Çin nə üçün hazırlaşır? (ixtisarla)

**Bu gün dünyada baş verən siyasi proseslərlə bağlı "Kviris Palitra" qəzeti akademik Lado Papavadan müsahibə alıb. Müsahibənin məzmununu ixtisarla hörmətli oxucularımıza təqdim edirik.**

Müsahibədə Lado Papava qeyd edib ki, Soyuq Müharibədə SSRİ-nin süqutu nəticəsində yaranan və ABŞ-nin rəhbərlik etdiyi təkqütblü Dünya nizamı günümüzdə mövcud deyil. Onun sözlərinə görə, Vaşinqtonun qarşısında ikinci qütb olaraq böyüyən iqtisadi, siyasi və hərbi nüfuza sahib Çin Xalq Respublikası formalaşıb. Günümüzdə Çin yeni texnologiyaları da aktiv inkişaf etdirir.

Lado Papava üçüncü qütbün mövcud olduğunu da qeyd edib. *"Üçüncü qütbə gəlincə, mən deyərdim ki, o, hələ tam görünmür, baxmayaraq ki, yarımqütb deyilən şey yaranır və bu, Rusiya olacaq, çünki Rusiyanın qütb kimi mövcudluğu bu gün həm Pekinin, həm də Vaşinqtonun marağındadır. Ara-sıra tənqidi və aqressiv çıxışlara baxmayaraq, Trampın Putinlə münasibətləri olduqca mehribandır. Bu arada Pekinin Moskva üzərində real, de-fakto təsiri var"*, - deyə o qey edib.

Ekspert Avropa İttifaqının qütb olmadığını da qeyd edib. Səbəb olaraq isə Aİ-nin müstəqil hərbi sənayesinin olmamasını və bu sahədə ABŞ-dən asılı olmasını bildirib. *"Siyasi təsir üçün vacib komponentlərdən biri olan öz silah istehsalına malik deyil. Düzdür, Brüssel Aİ ərazisində hərbi istehsala başlamaq üçün 800 milyard dollar sərmayə ayırmağa qərar verib, lakin bu, vaxt aparır. Bunu etmək asan deyil"*, -deyə Lado Papava açıqlayıb.

## QƏZETİMİZİN XRONİKASI

**Beynəlxalq münasibət**

•Yeni qaydaya əsasən, Gürcüstan və Ermənistanın tənzimləyici orqanları nəqliyyat sənədlərindəki məlumatları eyni metodologiya ilə yoxlayacaqlar.

•Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov mediaya Rusiya-Suriya münasibətlərinin gələcək inkişafı barədə danışıb. O qeyd edib ki, Rusiya Suriya Ərəb Respublikasının hazırkı rəhbərliyi ilə münasibətləri qoruyub saxlamağa hər cür cəhd edir və "bunu davam etdirəcək".

•Benyamin Netanyahu gələn həftə ABŞ - yə səfər edərək ölkə rəhbərliyi ilə görüşəcək. O, təhlükəsizlik məsələləri ilə bağlı iclasda iştirak edəcək.

•İsrail ordusu Qəzza zolağında hərbi əməliyyatını genişləndirdiyini açıqlayıb. Gəmilər anklavın cənubunda bir neçə hədəfə zərbələr endirib.

•Suriya Trampın sanksiyaların ləğvi ilə bağlı əmrinin tarixi olduğunu və bunun ölkənin yeni səviyyəyə keçməsinə kömək edəcəyini bildirib.

•İİR Xarici İşlər Nazirliyi İran və ABŞ arasında nüvə sazişi üzrə danışıqların bərpası şərtini açıqlayıb. Bunun üçün ABŞ-nin İrana yeni zərbələr endirməsi ehtimalı istisna edilməlidir.

•Türkiyə hakimiyyəti Sinop və Trakyada daha iki atom elektrik stansiyasının tikintisi üçün beynəlxalq müqavilələrin imzalanmasını sürətləndirməyi planlaşdırır – artıq Rusiya, Cənubi Koreya və Çinlə danışıqlar aparılır.

•Gürcüstanın səkkiz müxalifət partiyası payızda planlaşdırılan yerli özünüidarəetmə seçkilərində iştirakdan imtina etdiyini açıqlayıb. Sözügedən bəyanata "Vahid Milli Hərəkat", "Strategiya Ağmaşenebeli", "Avropa Gürcüstanı", "Azadlıq Meydanı", "Droa", "Qirçi-daha çox azadlıq", "Axali" və "Federalistlər" partiyaları qoşulub.

•Maliyyə naziri Laşa Xutsişvili Macarıstanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Anna Mariya Şiko ilə vida görüşü keçirib. İclasda maliyyə nazirinin müavini Yekaterine Quntsadze iştirak edib.

**Ölkədaxili**

•Tbilisi Şəhər Məhkəməsi müxalifətin "Dəyişikliklər Koalisiyası"nın liderlərindən biri olan Nika Qvaramianı Parlamentin Müvəqqəti İstintaq Komissiyasının tələblərini yerinə yetirmədiyinə görə 8 ay müddətinə həbs edib.

**İqtisadiyyat**

• İqtisadiyyat və Davamlı İnkişaf naziri Mariam Kvrivişvili bildirib ki, uzun illər Ümumdünya Dəniz Təşkilatı (IMO) ilə səmərəli əməkdaşlıq edən Gürcüstan hökuməti üçün dəniz sektorunun inkişafı prioritet məsələdir.

• Gürcüstan Milli Bankının materiallarına əsasən, 2025-ci il iyunun 1-nə bank sektorunda depozitlərin həcmi 58,92 milyard lari təşkil edib ki, bu da aprelin əvvəli ilə müqayisədə 140,41 milyon lari və ya 0,24% çoxdur.

• Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanı əhatə edən Xəzər - Qara dəniz - Avropa yaşıl enerji təchizatı dəhlizinin (Qara Dəniz Enerjisi) işə salınması 2032-ci ilə planlaşdırılır. Bu barədə Azərbaycanın energetika nazirinin müavini Orxan Zeynalov Avropa mediasına müsahibəsində bildirib.

•"Reuters" agentliyi xəbər verir ki, Çin tariflər və subsidiyalar da daxil olmaqla ticarət məsələlərində ABŞ ilə danışıqlara hazırdır.

•Qazaxıstan hökuməti Qərbin iri korporasiyaları, İtaliyanın "Eni" və Britaniyanın "Shell" şirkətlərindən Karaçaqanakda qaz emalı zavodunun tikintisinə nəzarəti dövlətə məxsus "KazMunaiQaz"a qaytarmağı tələb edib.

•Ölkə Parlamentinin spikeri Şalva Papuaşvili bildirib ki, artan iqtisadiyyat Gürcüstanın maraqlarına uyğun davranmağın nə demək olduğunu göstərir.

**İdman**

•İdman və Gənclər Nazirliyinin dəstəyi ilə iyulun 12-də Telavidə 19 yaşadək qızlar arasında həndbol üzrə Avropa çempionatı başlayacaq. Qitə birinciliyi uğrunda Gürcüstan, Belçika, Bolqarıstan, Böyük Britaniya, İsrail, İtaliya, Kosovo, Lüksemburq, Slovakiya və Ukrayna mübarizə aparacaq.

•İdman və Gənclər Nazirliyi Gürcüstanın məşhur idman jurnalisti Tamar Balavadzenin 70 illik yubileyinə həsr olunmuş tədbir təşkil edib.

**Ekologiya**

•Gürcüstanın Ətraf Mühitin Mühafizəsi Milli Agentliyi Qara dənizdə gümüş tetraodonun görünməsi ilə bağlı məlumatı təkzib edib. Onun məlumatına görə, dənizdə zəhərli balıq yoxdur.

**Maraqlı**

• Gent Universitetinin tədqiqatçılar qrupu rəssamlarla birlikdə indiki Belçika ərazisində Mezolit dövründə yaşamış qadının üzünü rekonstruksiya ediblər. Qalıqlar 35 ildən çox əvvəl Dinan yaxınlığındakı Marqot mağarasında aşkar edilib.

### SAĞLAMLIĞIMIZI QORUYAQ

## MEYVƏ VƏ TƏRƏVƏZLƏRİN XÜSUSİYYƏTLƏRİ, İNSAN ORQANİZMİNƏ FAYDALARI VƏ ZƏRƏRLƏRİ

*(Əvvəli ötən sayımızda)*

**Balqabaq**

Milli mətbəximizdə olduqca mühüm yerə sahib olan, latınca "Cucurbita" adlanan balqabaq balqabaqçiçəklilər dəstəsinin balqabaqkimilər fəsiləsinə aid bitkidir. Sözügedən bitkinin 700 qədər növü var. Balqabağın müxtəlif növləri forma, rəng və dad baxımından bir - birindən çox fərqlənir. Ən yayğın növləri qısa müddətdə yetişən Cucurbita pepo, 500 kq-dan artıq çəkiyə və şirin dada malik Cucurbita maxima, İsti və rütubətli iqlimlərdə inkişaf edən Cucurbita moşcata və b. Qeyd edək ki, müasir seleksiya ilə balqabağın "Muscat de Provence", "Hubbard" və "Delicata" kimi hibridləri yaradılıb.

Bəşər balqabaq ilə qədim zamanlardan tanış olub. "Cucurbita pepo"nun becərilməsinin ən qədim sübutu eramızdan əvvəl 7000-5500-cü illərə aid Meksikada tapılan balqabaq parçalarıdır. Balqabaq, qarğıdalı və lobya ilə birlikdə, Şimali Amerikanın bir çox yerli icması tərəfindən "Üç Bacı" adlanan aralıq əkin üsulu ilə becərilir.

**Balqabağı sağlam qida məhsulu adlandırmaq olar.** Onun insan organizmi üçün faydalı xüsusiyyətləri tərkibindəki yüksək miqdarda pəhriz lifi, antioksidantlar, vitaminlər, minerallar və zülallara görədir. Balqabağın tərkibində A, C, E və B qrupuna aid vitaminlər, həmçinin qan laxtalanmasına kömək edən, nadir K vitamini var. Balqabağın tərkibində həzm prosesini yaxşılaşdıran və piylənmənin qarşısını alan T vitamini də var. Dəmir tərkibinə görə balqabaq ən yaxşı alma növlərini üstələyir. Tərkibindəki yüksək kalium sayəsində balqabaq ürəyimiz üçün faydalıdır, qan damarlarını gücləndirir, şişkinliyi aradan qaldırır və buna görə də ürək-damar xəstəlikləri olan insanlar üçün əvəzolunmaz qidadır. Balqabaq yumşaq xoleretik təsirə malikdir. Qaraciyər və öd kisəsi xəstəliklərində balqabaq yemək çox faydalıdır. Mədə və onikibarmaq bağırsaq xoralarının sağalmasına kömək edir. Balqabağın tərkibində çoxlu miqdarda karotin var ki, bu da gözlər üçün çox faydalıdır. Balqabaq suyu sakitləşdirici təsirə malikdir və yuxunu yaxşılaşdırır. Balqabaq gəncliyimizi və gözəlliyimizi qorumaq üçün də faydalıdır. Təsadüfi deyil ki, ondan kosmetologiyada geniş istifadə olunur. Və ekzema, sızanaq, çiban kimi bir çox dəri xəstəliklərinə kömək edir.



**Balqabağın faydasından başqa, zərəri də var.** Çiy balqabaq yemək mədə - bağırsaq traktının iltihabi xəstəlikləri olan insanlar, həmçinin öd kisəsində və böyrəklərində daş olanlar üçün kontrendikedir, çünki balqabaq ödqovucu təsir göstərir və daşların hərəkətinə səbəb ola bilər. Çiy tərəvəzləri həzm etmək daha çətindir, ona görə də bişirilməmiş balqabağı kiçik uşaqlara və qocalara verməmək daha yaxşıdır. Balqabağın həddindən artıq istehlakı yalançı karotin sarılığına səbəb ola bilər - tərəvəzin tərkibindəki karotin dərinin saralmasına səbəb olur. Fərdi dözümsüzlük və allergiya nadir hallarda olur; bu halda məhsuldan imtina etmək daha yaxşıdır.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**HƏMƏSR** *is.* [*fars.* həm və *ər.* əsr] Bir əsrdə, bir dövrdə yaşamış və ya yaşayan, bir-birinin müasiri; çağdaş, əsrdaş. *Həməsr şairlər.*

*Həmsinlərin səfada, bağda,*
*Həməsrlərin çəməndə, dağda.*

M. Ə. Sabir.

**HƏMFİKİR** *is.* və *sif.* [*fars.* həm və *ər.* fikr] Eyni fikirdə olan, fikirləri, görüşləri, rəyləri bir olan; həmrəy, həmməslək, məsləkdaş.

*Həmfikir adamlar. Onlar bu məsələdə həmfikirdirlər.*

*Gəl bu hicran dərdini Nima, çəkək bir yerdə biz,*
*Həmfikir, həmdərd olaq, məskən salarsaq harda biz.*

Şəhriyar.

**HƏMHƏMƏ** *is.* Pıçıltı, pıç-pıç.

*Həm-həmə başlayır div ilə pəri,*
*Qorxudan qan olur xalqın ciyəri.*

Şəhriyar.

**HƏMHÜQUQ** *sif.* [*fars.* həm və *ər.* hüquq] Eyni hüquqa, bərabər hüquqa malik olan; bərabərhüquqlu.

*Bütün xalqlar həmhüquqdurlar. Həmhüquq iqtisadi münasibətlər.*

**HƏMHÜQUQLUQ** *is.* Eyni hüquqa, bərabər hüquqa malik olma; bərabərhüquqluluq.

**HƏMXANA** *is.* [*fars.*] Bir evdə, bir mənzildə yaşayan adamlardan hər biri; qonşu, mənzil qonşusu.

*Həmxanası qarşı evdən baxaraq,*
*Rübabəyə zilləmişdi gözünü.*

M. Müşfiq.

**HƏMXASİYYƏT** *is.* və *sif.* [*fars.* həm və *ər.* xasiyyət] Eyni xasiyyətdə olan, xasiyyətcə bir olan.

*Atı at yanına bağlarsan, həmrəng olmasa, həmxasiyyət olar.*

(Ata. sözü).

**HƏMİ** bax **həm.**

*Həmi sağdan, həmi soldan,*
*Zənbur kimi sancdı birə.*

Aşıq Ələsgər.

[Cahan Əsgərə:] *Allaha şükür, həmi pulun var, həmi dövlətin var, həmi cavansan.*

Ü. Hacıbəyov.

**HƏMİŞƏBAHAR** *is.* [*fars.*] 1. *bot.* İlin bütün fəsillərində çiçək açan cır qızılgül növü.

*Saib saxsıdakı yeni açmış həmişəbaharı məzar üzərinə qoyub geri çəkilər.*

H. Cavid.

2. Həmişə öz təravətini saxlayan; həmişəcavan.

[Qəmər xanım:] *Rəhmətlik kişi də deyərdi ki, həmişəbaharsan, ay Qəmər!*

M. İbrahimov.

**HƏMİYYƏT** *is.* [*ər.*] Vətən, ailə qeyrəti, namus, təəssüb.

*Min elm deməkdənsə həmiyyət gərək olsun,*
*Sözdən nə bitər, işdə həqiqət gərək olsun.*

M. Ə. Sabir.

**HƏMİYYƏTLİ** *sif.* Həmiyyət sahibi olan; qeyrətli, namuslu, təəssübkeş. *Bu kəndin adamları istəyiblər, .. özlərini Astaranın qeyrətli və həmiyyətli adamlarına oxşatsınlar.*

"Mol. Nəsr."

**HƏMKAR** *is.* [*fars.*] Biri ilə bir yerdə, bir sənətdə, bir peşədə işləyən adam; iş, sənət, ixtisas yoldaşı.

*Veys yanını stula təzəcə qoymuşdu ki, həmkarlarının yerdə bardaş qurduğunu görüb, özü də elə onların yanında çömbəlib divara söykəndi..*

Ə. Əbülhəsən.

◊ **Həmkarlar ittifaqı** – fəhlə və qulluqçuların mənafeyini qorumaq üçün əmək prinsipi üzrə onları birləşdirən kütləvi təşkilat.

**HƏML** *is.* [*ər.*] *klas.* Yük, ağırlıq.

◊ **Həml etmək** – 1) isnad etmək, izah etmək, yazmaq, aid etmək, səbəbini bir şeydə görmək.

*Minanın hərəkətini dəli olduğuna həml etdilər.*

Çəmənzəminli.

2) boynuna qoymaq, üzərinə yükləmək.

**HƏMLƏ** *is.* [*ər.*] Hücum, üzərinə atılma.

*Həmlələr pozmuş, qoşun sındırmış, qala fəth etmiş əsgər sevinci ilə Durmuş yatağına girdi.*

Mir Cəlal.

■ **Həmlə etmək** – hücum etmək, üzərinə atılmaq.

*İş atışmadan ötüb şəmşir və xəncər ilə bir-birinə həmlə etməyə çatdı.*

M. F. Axundzadə.

■ **Bir həmlədə** – dərhal, bir anda, bir dəfə həmlə etməklə.

*Koroğlu bir həmlədə özünü Aslan paşaya çatdırdı.*

"Koroğlu".

**HƏMMƏCLİS** *is.* [*fars.* həm və *ər.* məclis] Bir yerdə oturub-duran, məclis yoldaşı olan; həmnişin.

*Hər kəs* [Lütfəli bəylə] *bir, ya iki dəfə həmməclis və həmsöhbət olsaydı, yəqin onu sevərdi..*

İ. Musabəyov.

**HƏMMƏNA** *sif.* [*fars.* həm və *ər.* məna] Eynimənalı, birmənalı, mənası başqa sözün mənası ilə eyni olan. *Həmməna söz.*

**HƏMMƏSLƏK** *is.* [*fars.* həm və *ər.* məslək] Məsləkdaş, eyni məsləkdən olan, məsləkləri, əqidələri eyni olan.

**HƏMMƏZHƏB** *is.* [*fars.* həm və *ər.* məzhəb] *köhn.* Eyni bir məzhəbə mənsub olan, inanan; dindaş.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***

Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

## გამოცდების პერიოდი (Qamotsdebis periodi) İmtahan ərəfəsi

**გამოცდა არ არის მხოლოდ ცოდნის შემოწმება.** (Qamotsda ar aris mxolod tsodnis şemotsmeba.) **– İmtahan təkcə bilik yoxlaması deyil.**

**ეს არის საკუთარი თავის რწმენის გამოცდაც.** (Es aris sakutari tavis rtsmenis qamotsdats.) **– Bu, həm də özünə inamın sınağıdır.**

**ხშირად გვგონია, რომ გამოცდების შეფასება განსაზღვრავს ჩვენს ღირებულებას.** (Xşirad qvqonia, rom qamotsdebis şepaseba qansazğvravs çvens ğirebulebas.) **– Çox vaxt düşünürük ki, imtahan qiyməti bizim dəyərimizi müəyyən edir.**

**მაგრამ ეს ასე არ არის შენ ბევრად ღირსშესანიშნავი ხარ ვიდრე ქულა.** (Maqram es ase ar aris şen bevrad ğirsşesanişnavi xar, vidre qula.) **– Amma bu belə deyil, sən daha çox dəyərlisən, nəinki imtahan balı.)**

**შეგრძნება, რომ ღელავ – ნორმალურია.** (Şeqrdzneba, rom ğelav normaluria.) **– Həyəcan hiss etmək tamamilə normaldır.**

**ეს ნიშნავს, რომ შენთვის მნიშვნელოვანია ის, რაც გელოდება.** (Es nişnavs, rom şentvis mnişvnelovania is, rats qelodeba.) **– Bu o deməkdir ki, nə gözləyirsənsə sənin üçün önəmlidir.**

**არ დააბრუნო წარსული შეცდომები.** (Ar daabruno tsarsuli şetsdomebi.) **– Keçmiş səhvlərə qayıtma.**

**იმაზე იფიქრე, რისი გაკეთება შეგიძლია ახლა.** (İmaze ipikre, risi qaqeteba şeqidzlia axla.) **– İndi nə edə biləcəyini düşün.**

**ნუ შეადარებ საკუთარ თავს სხვებს.** (Nu şeadareb sakutar tavs sxvebs.) **– Özünü başqaları ilə müqayisə etmə.**

**შენი ბრძოლა მხოლოდ შენია.** (Şeni brdzola mxolod şenia.) **– Sənin mübarizən yalnız sənə aiddir.**

**გონება სიჩუმეში იზრდება იპოვე შენი სიმშვიდე.** (Qoneba siçumeşi izrdeba ipove şeni simşvide.) **– Beyin sakitlikdə inkişaf edir, öz sakitliyini tap.**

**მუდმივი შრომა ყოველთვის შედეგს მოიტანს.** (Mudmivi şroma xoveltvis şedeqs moitans.) **– Davamlı zəhmət sonda nəticə verəcək.**

**იქნებ ეს არ იყოს იდეალური, მაგრამ ის შენი იქნება.** (İkneb es ar iğos idealuri, maqram is şeni ikneba.) **– Bəlkə mükəmməl olmaz, amma bu sənin öz nəticən olacaq.**

**ნუ დააკნინებ შენს ძალისხმევას წინსვლა უკვე გამარჯვებაა.** (Nu daaknineb şens dzalisxmevas tsinsvla ukve gamarjvebaa.) **Əməklərini kiçiltmə irəliləyişin özü bir qələbədir.**

**ეს გზა არ არის მარტივი, მაგრამ შენ მას უკვე მიჰყვები.** (Es qza ar aris martivi, maqram şen mas ukve mihğvebi.) **– Bu yol asan deyil, amma sən artıq onun üzərindəsən.**

# İYUL

*(Əvvəli 30 may tarixli sayımızda)*



Qədim zamanlarda bu aya Marial ayı deyirdilər, el arasında isə biçin ayı. İstiləndi, günəş səmada qızardı və insanın ənsəsinə vurur, tarlaya çıxmış insanın, toxaçının, biçinçinin, traktorçunun, kombaynçının, cütçünün, vəlçinin təri sel kimi axır. Qızmar Günəşdən yeganə qorxmayan çay ilbizcüllütü və suçudur, - lakin bunların da ayağı sərindirsə, başı hər halda örtülübsə, alnını tez-tez soyuq kiçik çayın suyu ilə isladırsa.

Dağın güney ətəkləri, çöllüklərin uzandığı yerlər artıq yanıb, ot quruyub, lakin orda-burda gözəl, sarı güllü bəlgəmotu, ucaboy, dənəli sığırquyruğu, ağ qanqal, zəngiçiçəyi, torpağa sərilmiş çiçəyi qızılgül rəngli əməköməci və sair görünür. Lakin ümumi mənzərə bozdur.

Torpaqdan buğ qalxır, səthi işıldayır, istidən hava titrəyir. Hərdənbir şərq tərəfdən külək əsir və düşünərsən ki, təndirdən buğ çıxır, elə bir isti və buğ dövrə vurur. Hər şey hərəkətsiz qalıb. Yalnız cırcırama və ağ cırcırama qulaqbatırıcı şəkildə cır-cır cırıldayır. Hərdənbir ona ağac qurbağası hay verir. Ağacın budaqları arasında bəzən qurultayır. Quşlar ağzını açıblar və budaqların üzərində pusquda durublar. Axşamüstü isə sərin meh əsəndə və bir balaca rəqs edəndə, biçilməmiş zəminin və biçilməmiş otun üzərindən külək ötəndə, bax onda hay-küy qopur, ana quş indi yumurtadan çıxan balalarına uçmaq öyrədir. İlk öncə uçası balalar üçün yuvaya doğru qurd-murd aparır. Bəzisi ilk öncə olan bu işi bitiribdir və yeni işə başlayıb. Yuvasını sahmana salıb, düzəldib və yenidən yumurtalar üzərində yatıb. Sığırçın, qara toyuq artıq ilk uçan balalarının önündə gedir.

Zığ-zığ calalarda zığıldayır, qarıldayır və öz dəstəsinə heyvanların səslərini yamsılamağı öyrədir. Artıq sarıkoynəyin də balaları uçublar, bəzisini artıq itirib də və axtarır: "Qoqia oğlan, hardasan?"

Qaratikan və murdarça kollarında və bitkilərin bir-birinə sarıldığı gövdələrdə kəklik və dağ kəkliyi civildəyir, bəzəkli balalarını ətrafına yığır. Bildircın isə zəmidən qarğıdalılığa keçib, orda başını gizlədib və uçmalı olan balalarına qulluq edir.

Dağda isə tetra quşu və ular quşu yenə yumurta üstündə yatırlar. Bu gün, — sabah onların da balaları rododendron bitkisinin kollarına və dağ çəmənliklərinə səpələnəcəklər.

Dağ keçisi, köpkər, bezoar keçisinin oğlağı, maral və ceyranın balası artıq qamətini düzəldib və qətiyyətlə analarının dalınca gedir, ot otlayır, aradabir anasının məməsini balaca dodaqlarının arasına salırlar. Maral və ceyranın balası da ayaqlarını bərkidib, dağın çəmənliklərində atılıb - düşürlər. Lakin hələ anasından aralı düşmürlər. Ayaqları hər halda elə də möhkəm deyil ki, canavardan və vaşaqdan qaça bilsin.

Tülkü hardasa çöl siçanını tutub və öz yuvasının ağzına diri aparıb. Tülkünün yuvadan çıxan beş və ya altı balası çöl siçanını oynadırlar, nə öldürürlər və nə də dirildirlər, onun ətrafında hoppanırlar və gah pəncəsini ona vururlar, gah da üzünü sürtürlər. Ana tülkü uzaqdan seyr edir və ovçuluğa rəhbərlik edir, öyrədir.

Biçin ayında quşların, istərsə də heyvanların nəslinin qüvvətlənməsi, pərvazlanması, dizlərinin bərkiməsi... ağacda və otda artıq qida yığmaları, yemləmələri başlayır.

Buna görə də çöldə, bağda, üzüm bağında, çay plantasiyasında və bostanda da hər yerdə geniş vüsət almış iş gedir.

Biçin ayı biçin ayıdır. Biçin erkən başlayır, xüsusən də Kvemo Kartlidə, Alazani düzənliyində, Şirakidə, lakin biçin əsasən bu aydadır. Aranda və dağın ətəklərində də biçin gedir.

Biçinin qızğın vaxtı bu aydadır. Zəmidən taxılı elə götürməliyik ki, bir dəni belə nahaqdan və sadəcə olaraq itirməyək. Olduqca qısa müddət ərzində taxılı yerbəyer edək. İndi də ki, oraqla biçmirik və götürmürük ki, taxılın yığılmasını uzun müddətə uzadaq. Traktor və kombayn bizim əlimizdədir və kolxoz 8-10 günə bu böyük işin öhdəsindən gəlməlidir. Bundan sonra dönmədən samanın bulunlaşdırılmasına, çöldən gətirilməsinə, torpağın daranmasına, əkininə, səpin üçün zəminin hazırlanmasına və tezliklə səpininə də, ələlxüsus da ki, Kvemo Kartlidə və Kaxetidə aralıq bitkiləri toxumunun səpininə başlanılır.

Yayda üzüm bağından əl əksik olmur. Mis kuporosu məhlulu ilə və kükürdlə dərmanlamanı tələsmədən və böyük diqqətlə davam etdirməliyik. Tənəyin üzünə səmanı açmalıyıq, alaq otunu yox etməliyik, dibini boşaltmalıyıq; Bir sözlə, ona qulluq edən adam üzüm bağında fırlanmalıdır və fırlanır da.

Bağda meyvə yığımı başlayıb; Faraş gilas, gilənar, şaftalı, qaysı, ərik yığılır. Tezliklə ona xırman armudu (Gürcü armudunun yay sortunun ümumi adı - Tərcüməçi) da əlavə olunacaq. Tutu bəkməz (doşab) hazırlamaq üçün qaynadırlar. Bəzi yerlərdə quru meyvə olaraq qurudurlar. Buna baxmayaraq, bağdan da əl əksik olmamalıdır, ağac dərmanlanmalı, suvarılmalı, dibi boşaldılmalıdır. Tinglikdə cır, turş meyvə verən orta boylu ağac budanmalı, peyvənd üçün hazırlanmalı və tumurcuq ilə peyvəndi başlamalıdır.

Subtropik meyvə plantasiyalarda ziyanvericilərin öhdəsindən nə gələ bilər? Gümüşvari gənənin və ya qırmızı gənənin öhdəsindən nə gələ bilər, əgər mübarizə aparmasan, əgər ağacı kükürd-əhəng qarışığı məhlul ilə və başqa dərmanlarla dərmanlamasan? Terrasların üstündəki ot biçilməlidir. Ağacların qırağı bellənməli və dibi boşaldılmalıdır.

Çay plantasiyalarında isə yarpaq ara vermədən, yağışda da yığılır. Hazırda ən başlıcası budur, lakin onun dibi boşaldlmasa, ona qulluq edilməzsə, yarpaq da əmələ gəlməz.

Qarğıdalının ikinci toxası iyulun başlanğıcındaca sona yetirilməlidir. Qabaqcıl kolxozçular və briqadalar adətən üçüncü toxanı başa çatdırırlar.

Tənbəki plantasiyalarında da toxalamaq, yarpağın dərilməsi, başlarının kəsilməsi davam edir. Axı, ayın sonunda yarpağın yığılması geniş vüsət alacaq.

Eləcə də şəkər çuğunduru toxalanır, suvarılır, əlavə gübrə ilə qulluq edilir.

Tərəvəz bir yerdə yığılır, payız üçün bir yerdə səpilir, bir yerdə toxalanır. İyun - biçin ayı. Dərd tərini tökmək ayıdır. İndi əgər tər tökməsən, payız bərəkətsiz olacaq.

**Niko Ketsxoveli,**

**Tərcümə etdi: Mirzə Məmmədoğlu.**

*MƏDƏNİYYƏT*

# "FAXRALITƏK AĞIR ELİM VAR MƏNİM" DEYƏN ŞAİRİN ADI ƏBƏDİLƏŞDİRİLİR



İyun ayının 29-da Bolnisi bələdiyyəsinin Talaveri (Faxralı) kəndində şair Nəbi Faxralı (Miskin) adına Mədəniyyət Mərkəzinin açılış mərasimi baş tutub.

Bu Mədəniyyət ocağı Rusiyada və Azərbaycanda yaşayan Faxralıların maddi və mənəvi dəstəyi ilə yaradılıb.

Gürcüstan Parlamentinin deputatı Davit Şerazadişvili qırmızı lenti kəsərək Mədəniyyət Mərkəzini açıq elan edib və o, şair Nəbi ocağına kitablar hədiyyə edib.



Davit Şerazadişvili çıxış edərək belə bir tədbirdə iştirak etməyin məmnunluq doğurduğunu, hər zaman maddi və mənəvi şəkildə dəstək olmağa hazır olduqlarını bildirib.

Rusiyadan şair Xalid Qurbanoğlu, Rasim Aşırov, Teymuraz Musayev, Azərbaycandan Namiq Babaşlı, Dünyamalı Məmmədov, şair Səadət Buta, İki çağırış Parlament deputatı Ramiz Bəkirov, el ağsaqqallarından Aşıq Alı Poladov, Bayram Abbasov, Həmid Kərimov,




Söhbəddin Məmmədov, Azərbaycan dili və ədəbiyyatı müəllimləri Səməyə Musayeva, Fatma Əliyeva, Səlminaz Əsədulla qızı çıxış edərək bu tədbirin tarixi əhəmiyyət kəsb etdiyini, "Borçalının şeir atası" (təbir Fatma Aslanındır) şair Nəbinin ruhunun, eyni zamanda sazlı-sözlü Faxralının uca adının müqəddəsləşməsi yönündə atılan vacib və nəcib bir addım olduğunu dilə gətiriblər.

Bolnisi bələdiyyəsi merinin Faxralı və İmirhəsən kənd ərazi vahidlikləri üzrə nümayəndəsi Novruz Ayvazov yeni açılmış Mədəniyyət Mərkəzinin elin tarixində mühüm hadisə kimi qiymətləndirərək onun hər kəsin üzünə açıq olduğunu vurğulayıb, Gürcüstanda və ondan kənarda yaşayan maddi və mənəvi şəkildə dəstək olan hər kəsə öz minnətdarlığını bildirib.

O, həmçinin qeyd edib ki, bu möhtəşəm gün şair Nəbinin 80-ci Anım Gününə təsadüf edib.

Məktəb müəllimləri çıxış edərək şair Nəbinin keçdiyi keşməkeşli həyat yolundan, qazandığı hörmətdən, yazdığı şeirlərin fəlsəfi dəyərlərindən danışıblar.

Şair Məmməd Lahıcoğlunun aparıcılığı ilə keçən tədbirdə məktəblilər şair Nəbi Faxralının şeirlərini səsləndirib, aşıqlar Məsim Sadaxlı, Həvəskar Nurəddinoğlu, Nargilə Mehtiyeva, Rəhim Faxralı, Ramin Qarayev, Əfqan Şamilov, Kamandar Lətifoğlu, Qabil Abdıyev, Sahib Faxralı, Qara Borçalı şairin sözlərinə bəstələnmiş aşıq havalarını ifa ediblər.

Açılış mərasimində tanınmış ziyalılardan Nəsrəddin Musayev, Sərxan Candarlı, Bafəli Adıgözəlov, Akif Xansultanlı və kənd sakinləri də iştirak ediblər.

Sonda isə şairin nəvələri Nərgiz xanım, Əhmədalı, Camal, və İsmayıl Mərkəzin açılmasına dəstək verən, onun ərsəyə gəlməsində əməyi olan hər kəsə öz təşəkkürlərini çatdırıblar.



**"Gürcüstan"**

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ




**4 iyul**

• 1776 — Böyük Britaniyaya qarşı mübarizə aparan Şimali Amerikadakı 13 müstəmləkə Pensilvaniyanın Filadelfiya şəhərində Müstəqillik Bəyannaməsini qəbul edərək, ABŞ-nin əsasını qoyub. Qeyd edək ki, yeni dövlət birinci dəfə həmin sənəddə "ABŞ" adlandırılıb.

•1874 — Amerikalı memar Ceyms Byukenen İks ABŞ-nin Missuri ştatının Sent – Luis şəhərində Missisipi çayı üzərində ilk poladdan körpü salıb.

**•ABŞ – nin Müstəqillik Günüdür.**

**5 iyul**

•1687 — Britaniyalı fizika alimi və filosof İsaak Nyuton klassik mexanikanın əsasını təşkil edən və onun adını daşıyan ümumdünya cazibə qanununu və üç hərəkət qanununu tərtib etdiyi fundamental əsəri 3 cildlik "Natural fəlsəfənin riyazi əsasları" kitabını nəşr etdirib.

•1962 — 1 noyabr 1954-cü ildən Fransa idarəçiliyinə qarşı silahlı mübarizə aparan Əlcəzair müstəqilliyini elan edib.

•1996 — Böyük Britaniyanın ən qədim və nüfuzlu elm mərkəzi Edinburq Universitetinin Roslin institutunda Ian Vilmut və əməkdaşları tərəfindən klonlaşdırılmış məməli – qoyun Dolli dünyaya gəlib. İlk heyvan klonu olan Dolli 14 fevral 2003-cü ildə ağciyər xəstəliyi səbəbilə ölüb.

**6 iyul**

• 1415 — Çex protestantların lideri Yan Hus kilsəni və hökuməti aşkar tənqid etdiyinə görə Şvabiyanın (cənub-qərbi Almaniya) Konstants şəhərində odda yandırılaraq edam edilib.

•1885 — Dünyada insana quduzluğa qarşı ilk peyvənd edilib. Fransız alim Lui Paster quduz itin dişlədiyi 9 yaşlı Cozef Meisterə peyvənd edərək, onu quduzluqdan xilas edib.

•1988 — Gürcü rəssam Uça Caparidze vəfat edib.

**7 iyul**

•1668 — **İsaak Nyuton Kembric Universitetinin Triniti Kollecində Elm Maqistri dərəcəsi alıb.**

•1881 — İtalyan yazıçı Karlo Kollodinin "Pinokyonun macəraları" nağılı Romada, "Uşaqlar üçün jurnal"da nəşr edilib.

•1987 — Çernobıl Atom Elektrostansiyasında baş vermiş partlayışda ittiham olunan elektrostansiyanın direktoru Bryuxanov, baş mühəndisin müavini Dyatlov və baş mühəndis Fominin məhkəmə prosesi başlayıb. Onların hamısına üç maddə üzrə ittiham irəli sürülüb: "Səhlənkarlıq", "Vəzifə səlahiyyətlərindən sui-istifadə" və "Partlayıcı istehsal edən müəssisələrdə təhlükəsizlik qaydalarının pozulması".

**8 iyul**

•1833 — Rusiya və Osmanlı imperiyaları İstanbul yaxınlığındakı "Hünkar İskelesi" sülh, dostluq və müdafiə ittifaqı haqqında müqavilə imzalayıblar. Müqavilə Rusiyanın Osmanlı imperiyasına Misir valisi Məhməd-Əli Paşa üsyanının yatırılmasındakı dəstəyindən sonra imzalanıb.

•1898 — **İvane Maçabeli, gürcü yazıçı və publisist, vəfat edib.**

•1969 - Vyetnam Müharibəsi: Amerika qoşunlarının Cənubi Vyetnamdan çıxarılma prosesi başlayıb. Proses üç il yarım sonra tamamlanıb. Nəticə olaraq, ABŞ-nin müttəfiqi olan Cənubi Vyetnam kommunist Şimali Vyetnam qarşısında məğlub edilib və Vyetnam birləşib.

**9 iyul**

•1686 — Müqəddəs Roma imperatoru I Leopold, İspaniya kralı II Karl, İsveç kralı XI Karl, Bavariya kurfyurstu II Maksimilian Emanuel Fransanın ekspansionist siyasətinə qarşı Auqsburq Liqasını yaradıblar.

•1816 — XVI əsrdən İspaniyanın müstəmləkəsi olan Argentina müstəqilliyini elan edib.

•1926 — Nəcəf bəy Vəzirov, Azərbaycan yazıçısı, vəfat edib.

**10 iyul**

•1547 — Fransa kralının rəsmi icazə verdiyi son duel baş tutub. Sonradan duellərə qadağa qoyulmasının səbəbi tez-tez ölüm halları olub. Qadağaya baxmayaraq, duellər əvvəlki kimi tez-tez davam edirdi. Buna görə də, 1566-cı ildə Kral IX Karl duelin hər hansı iştirakçısını ölüm cəzasına məhkum edən bir fərman verməyə məcbur olub.

•2016 — Portuqaliya "Avro – 2016"nın finalında əlavə vaxtda Fransanı 1-0 hesabı ilə məğlub edərək ilk Avropa çempionu olub.

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## İVANE MAÇABELİ



***XIX əsrin görkəmli gürcü ziyalısı İvane Maçabeli 8 fevral 1854-cü ildə Tsxinvali rayonunun Tamaraşeni kəndində anadan olub.*** Orta təhsilini Tbilisi Gimnaziyasında alıb. 14-15 yaşlarında şeir yazmağa başlayıb. 1871-1874-cü illərdə Sankt-Peterburq Universitetinin təbiət elmləri fakültəsində təhsil alıb. İvane Maçabeli Sankt - Peterburqa gedən İlia Çavçavadze ilə yaxınlaşaraq, onunla birlikdə Şekspirin "Kral Lir" əsərini tərcümə edib. Bu tərcümə gürcü ziyalılar tərəfindən böyük rəğbətlə qarşılanıb. 1874-1877-ci illərdə İ. Maçabeli əvvəlcə Almaniyada, Hoffenheim Kənd Təsərrüfatı Akademiyasında, sonra isə Parisdə Sorbonna Universitetində təhsil alıb. 1879-cu ildə Maçabeli Gürcüstana qayıdaraq səmərəli yaradıcılıq və ictimai fəaliyyətə başlayıb. Həmin ildən gürcü mətbuatında onun şeirləri, tənqidi-publisistik məktubları, tərcümələri dərc olunmağa başlayıb.

İvane Maçabeli 1888-ci ildə Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərinin nəşrinin redaktoru olub; poemanın illüstratoru, macar rəssam M. Zıx, eləcə də Marcori Vordrop və poemanın digər xarici tərcüməçiləri ilə sıx əməkdaşlıq edib. O, həmçinin rus bəstəkarı M. İppolitov - İvanovun sifarişi ilə "Pələng dərisi geymiş pəhləvan" operasının librettosunu yazıb. İ. Maçabeli 1879-cu ildən "İveriya"nın fəal əməkdaşı, 1882-1883-cü illərdə redaktoru olub. 1883-1885-ci illərdə "Droeba" qəzetinin redaktoru olub. İ.Maçabeli gürcü teatrının repertuarını zənginləşdirib. O, Molyerin "Şübhəli" əsərini tərcümə edib, müxtəlif dillərdən pyesləri, "Vəkil Meladze", "Fru - Fru və ya parıldayan köpək", "İki od arasında" və s. İvane Maçabelinin Şekspir faciələrindən parlaq tərcümələri gürcü ədəbiyyatı tarixində layiqli yer tutub.

İvane Maçabeli 8 iyul 1898 - ci ildə Tbilisidə vəfat edib.

## İSAAK NYUTON



***İsaak Nyuton 25 dekabr 1642-ci ildə İngiltərənin Likolnşir qraflığında, Qrentem şəhəri yaxınlığında yerləşən Vulstrop kəndində anadan olub.*** Təhsilinə 1655-ci ildə Qrentem məktəbində başlayıb. 1661-ci ildə məktəbi uğurla bitirərək, təhsilini davam etdirmək üçün Kembricə gedib. Nizamnaməyə əsasən, o latın dilindən imtahan verib, nəticədə Kembric Universitetinin Triniti Kollecinə qəbul olub. Nyuton həmin kollecdə təhsil alıb və 30 il ərzində elmi fəaliyyət göstərib. 1668-ci ildə həmin kollecdə Elm Magistri dərəcəsinə çatıb.

1687-ci ildə İsaak Nyuton klassik mexanikanın əsasını təşkil edən və onun adını daşıyan ümumdünya cazibə qanununu və üç hərəkət qanununu tərtib etdiyi fundamental 3 cildlik "Natural fəlsəfənin riyazi əsasları" kitabını nəşr etdirib. Nyuton cazibə qüvvəsinin riyazi təsvirini Keplerin planetlərin hərəkətinin empirik qanunlarını təsdiq etmək, həmçinin qabarma və çəkilmə, gecə-gündüz bərabərliyi və digər hadisələrin elmi nəzəriyyəsini qurmaq məqsədilə tətbiq edib. 1704-cü ildə Nyuton "Optika" kitabını nəşr edib. Sözügedən kitabda işığın prizma və linzalardan keçərkən sınması, difraksiya, müdaxilə və rənglərin qarışması nəzəriyyəsi ilə bağlı əsas qanunlar araşdırılıb. Nyutonun bu əsəri fizikada ən mühüm əsərlərdən biri hesab edilir və 19-cu əsrdə dalğa optikasının yaranmasına qədər optikanın inkişaf yolunu müəyyən edən əsər olub. Londonda həyatının son otuz ilində Kral Sikkəxanasında Mühafizəçi (1696-99) və sonra menecer (1699-1727) vəzifələrində çalışan Nyuton İngiltərənin pul sistemində əhəmiyyətli təkmilləşdirmələr edib.

İsaak Nyuton 20 mart 1727-ci ildə İngiltərənin Midlseks qraflığının Kensinqton şəhərində vəfat edib.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI (ABŞ)



Amerika Birləşmiş Ştatları Şimali Amerikada yerləşən və 50 ştatdan, bir federal dairədən, beş böyük özünüidarə ərazisindən ibarət dövlətdir. ABŞ şimalda Kanada, cənubda isə Meksika ilə həmsərhəddir. Qərbdə Sakit okeana, şərqdə Atlantik okeana, şimalda Şimal Buzlu okeana çıxışı var. Ən böyük əraziyə sahib dövlətlər arasında üçüncü yerdədir – ölkə ərazisi 9,8 milyon kv. km.-dir. Əhalisinin sayı 340 110 988 nəfərdir. Paytaxtı Vaşinqtondur. Böyük şəhərləri Nyu-York, Los- Anceles, Çikaqo və Dallasdır. Rəsmi dili inglis dilidir.

**Tarixi:** İlk insanlar Amerika qitəsinə təxminən 15 min il əvvəl, donmuş və ya dayaz Berinq boğazı vasitəsilə Avrasiyadan köçüblər. Qitəyə yerləşənlər tədricən çoxsaylı hindu mədəniyyətini formalaşdırıblar. XVII - XVIII əsrlərdə Şimali Amerika – müasir ABŞ və Kanada əraziləri – Böyük Britaniya və Fransanın müstəmləkələri olub. Qitəyə yerləşən ingilislər Atlantik okeanı sahilində 13 müstəmləkə qurublar. 1775-ci ildə Böyük Britaniyanın iqtisadi siyasətindən narazı sözügedən 13 müstəmləkə "Amerika İnqilabı" kimi bilinən müstəqillik mübarizəsinə başlayıb. 4 iyul 1776-cı ildə 13 müstəmləkə Pensilvaniyanın Filadelfiya şəhərində Müstəqillik Bəyannaməsini qəbul edərək, ABŞ-nin əsasını qoyub. Müstəqillik mübarizəsi 3 sentyabr 1783-cü ildə ABŞ-nin qələbəsi ilə nəticələnib. Ölkənin birinci prezidenti Corc Vaşinqton olub.

ABŞ-nin cənub və şimal ştatları arasında iqtisadi və hüquqi qarşıdurma da olub: şimal ştatların iqtisadiyyatı fermerliyə və sənayeçiliyə əsaslandığı üçün, orada quldarlığa ehtiyac olmayıb, cənub ştatların iqtisadiyyatı isə geniş pambıq və şəkər plantasiyalarına əsaslandığı üçün onların Afrikadan gətirilən qullara ehtiyacı olub. 1861-ci ildə şimal və cənub ştatlar arasında 1865-ci ilə qədər davam edən vətəndaş müharibəsi başlayıb. Müharibə şimali ştatların qələbəsi ilə nəticələnib.

İspaniya - ABŞ və Birinci Dünya müharibələrində ABŞ - nin əldə etdiyi uğurlar ölkənin qlobal hərbi güc statusunu təsdiqləyib. ABŞ İkinci dünya müharibəsindən qlobal bir supergüc, nüvə silahını inkişaf etdirən ilk ölkə, müharibədə nüvə silahını istifadə edən yeganə ölkə və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının daimi üzvü olaraq çıxıb. İkinci Dünya müharibəsindən sonra ABŞ və SSRİ arasında qlobal hegemoniya uğrunda soyuq müharibə gedib. Qarşıdurma 1991-ci ildə SSRİ-nin dağılması nəticəsində ABŞ-nin qələbəsi ilə bitib.

**Coğrafiyası:** Ölkənin əsas ərazisində Atlantik ovalığının qərbində Appalaçi dağları uzanır, onların arxasında Mərkəzi düzənliklər (dəniz səviyyəsindən 200-500 m yüksəklikdə), Böyük Düzənlik yaylası (600-1500 m) yerləşir. Demək olar ki, Kordilyer dağ sistemi ölkənin bütün qərbini təşkil edir. Böyük Kanyon unikal təbiət hadisəsidir, dərinliyi təxminən 1,8 km, uzunluğu 446 km olan nəhəng kanyondur. Ölkə böyük bir ərazidə yerləşdiyindən, demək olar ki, bütün iqlim zonalarına malikdir - Alyaskanın şimalındakı arktik iqlimdən Havay əyalətindəki və Floridanın cənubundakı tropik iqlimə qədər.

**İqtisadiyyatı:** ABŞ iqtisadiyyatı nominal ÜDM-in həcminə görə dünyada lider iqtisadiyyatdır və dünya ÜDM-nin 25%-ni təşkil edir. ABŞ iqtisadiyyatının strukturu açıq-aşkar post-sənaye xarakteri ilə xarakterizə olunur. ABŞ ÜDM-nin təxminən 80%-i xidmət sahələrində yaradılır (buraya ilk növbədə səhiyyə, maliyyə, ticarət, müxtəlif peşə və şəxsi xidmətlər, nəqliyyat və rabitə, dövlət xidmətləri, elm və təhsil daxildir). Beləliklə, maddi istehsalın (kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, mədənçıxarma və emal sənayesi, tikinti) payı ÜDM-in 20%-dən, o cümlədən kənd təsərrüfatında 1%-dən, sənayedə 18%-dən az olaraq qalır.

**Dövlət quruluşu:** Amerika Birləşmiş Ştatları prezident respublikasıdır. Amerika Birləşmiş Ştatlarının Prezidenti dövlət, hökumət başçısı və silahlı qüvvələrin ali baş komandanıdır. Ən yüksək qanunverici orqan ikipalatalı parlament, ABŞ Konqresi, ABŞ Nümayəndələr Palatası və ABŞ Senatıdır. Hər ştatın Senatda iki nümayəndəsi (senatorlar) var. Hər bir ştatdan Nümayəndələr Palatasında üzvlərin sayı ştatın əhalisinin sayından asılı olaraq, hər 10 ildən bir müəyyən edilir (əhalisi digər ştatlarla müqayisədə nə qədər çox olarsa, nümayəndələr də bir o qədər çox olar).

**Elm və təhsil:** Birləşmiş Ştatlarda təhsil əsasən dövlət təhsilidir, üç pillədir və federal, əyalət və yerli hakimiyyət tərəfindən maliyyələşdirilir. Özəl ali təhsil müəssisələri dünyanın hər yerindən bakalavr və magistr tələbələrini cəlb edir. ABŞ-da savadlılıq səviyyəsi 97% təşkil edir, lakin 2003-cü il siyahıyaalınmasına əsasən, 25 və daha yuxarı yaşda olan insanların yalnız 84,6%-i orta məktəb təhsilinə malikdir; 52,5%-i kollec, 27,3%-i isə bakalavr dərəcəsinə malikdir.

GÜRCÜSTAN
Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება
"საქართველო"
"SAKARTVELO"
Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა



İDMAN İDMAN

# İLİA TOPURİA UFC-NİN YÜNGÜL ÇƏKİ DƏRƏCƏSİNDƏ ÇEMPİON OLUB



***Gürcüstanlı döyüşçü İlia Topuria UFC-nin yüngül çəki dərəcəsində (70 kq) yeni çempionu adını qazandı.***

Topuria Braziliyanın təmsilçisi Çarlz Oliveiranı ilk raundda nokautla məğlub edib. Bu qələbə ilə o, karyerasında daha bir önəmli titula sahib olub.

Qeyd edək ki, İlia Topuria 2024-cü ilin fevralında Aleksandr Volkanovskini məğlub edərək UFC-nin yarımyüngül (65 kq) çəki dərəcəsində çempion olmuşdu. Həmin titulu oktyabr ayında Maks Holloye ilə döyüşdə uğurla müdafiə etmişdi.

DƏYİŞİKLİK

# SÜRÜCÜLƏRİN NƏZƏRİNƏ: CƏRİMƏLƏR ARTIRILIR...

***"İnzibati Xətalar Məcəlləsi"nə edilən dəyişikliklər çərçivəsində bir sıra yol hərəkəti qaydaları üzrə maliyyə sanksiyaları sərtləşdirilir.***

Qanun layihəsi parlamentdə təcili prosedurla müzakirəyə çıxarılıb.

Yeni dəyişikliklərə əsasən, öz-başına dəyişdirilmiş nəqliyyat vasitələrinin idarə olunmasına görə cərimə 100 laridən 200 la-riyə qaldırılır. Bu kateqoriyaya, o cümlədən səsboğucusu dəyişdirilmiş avtomobillər də daxildir. Hüquq-mühafizə orqanları belə nəqliyyat vasitələrini xüsusi dayanacağa aparmaq və sürücünü idarəetmədən kənarlaşdırmaq səlahiyyətinə malik olacaq.

Bundan əlavə, nəqliyyat vasitəsinə qanunla müəyyən edilmiş rəngdən fərqli yanıb-sönən siqnal quraşdırılması – digər sürücüləri aldatmaq məqsədilə – 2 000 lari cərimə ilə cəzalandırılacaq. Bu halda həmçinin siqnal müsadirə olunacaq və sürücünün cərimə balı 15 bal azaldılacaq. Həmin hərəkətin təkrarına görə cərimə 2 500 lari, siqnalın yenidən müsadirəsi və 20 bal azalma ilə müşayiət olunacaq.

Yeni dəyişikliklərə əsasən, "drift" (nəqliyyat vasitəsini qəsdən sürüşdürən) edən sürücülərə də inzibati məsuliyyət tətbiq ediləcək – bu, bütün növ nəqliyyat vasitələrinə şamil olunur.




Piyada və digər hərəkət iştirakçılarına dair cəzalar da sərtləşdirilir. Belə ki, "Yol Hərəkəti Haqqında" qanunun, yol nişanlarının və tənzimləyici siqnalların tələblərinin pozulmasına görə 10 larilik cərimə 50 lariyə qədər artırılıb. Eyni qayda pozuntusunun təkrarına görə cərimə 20 – 100 lari arasında dəyişəcək.

Avtomagistrallarda və beynəlxalq əhəmiyyətli yollarda bu cür pozuntulara görə 100 lari, bir il ərzində təkrar pozuntuya görə isə 200 lari cərimə tətbiq olunacaq.

MARAQLIDIR

# DÜNYANIN ƏN QURAQ SƏHRASINA QAR YAĞIB

***Bu barədə həmin ərazidə yerləşən ALMA rəsədxanasının "X" hesabında paylaşım edilib.***



"Ən quraq səhrada - Atakama səhrasında qar yağıb", – deyə məlumatda bildirilir.

Qeyd olunub ki, bu cür intensiv qar yağıntısı bölgədə sonuncu dəfə 10 il əvvəl müşahidə olunub.

Atakama səhrası Çilinin şimalında, yüksək dağlıq ərazidə yerləşir. Səhrada yağıntının son dərəcə az olması onu astronomik müşahidələr və rəsədxanaların qurulması üçün ideal məkana çevirib.

BAŞSAĞLIĞI

"Gürcüstan"qəzetinin kollektivi Tbilisi sakini, sabiq əməkdaşımız Elman Xəlilova qardaşı

**Eldar Dünyamalı oğlu Xəlilovun**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**





Marneuli Bələdiyyəsinin Aşağı Saral ictimai məktəbinin pedaqoji kollektivi məktəbin riyaziyyat müəllimi

**Məzahirə Əliyevanın**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

# DUMANLI YAMAÇLARDA



Foto E.Şahvələdindir.

QƏRAR

# AZƏRBAYCANDA QOHUM EVLİLİYİ QADAĞAN EDİLİR



***Azərbaycanda əmi, xala, bibi və dayı uşaqlarının evliliyinə qoyulan qadağa qüvvəyə minir.***

Bu, Azərbaycan Prezidenti İlham Əliyevin təsdiqlədiyi Ailə Məcəlləsinə dəyişiklikdə öz əksini tapıb. Belə ki, iyulun 1 - dən nikahın bağlanmasına mane olan halların sayı artırılıb.

*Ailə Məcəlləsinə aşağıdakı hallar əlavə edilib:*

- qardaşların və (və ya) bacıların ümumi bioloji baba və (və ya) nənəsi olan uşaqları;
- bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızı, həmçinin bibi (xala) və qardaş (bacı) oğlu.

## ABUNƏ YAZILMAĞI UNUTMAYAQ !

# "GÜRCÜSTAN" QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏRİN VƏ ABUNƏÇİLƏRİN NƏZƏRİNƏ!

***Hörmətli oxucular!***

"Gürcüstan" qəzeti Sizin sayə-nizdə bir əsrdir ki, davamlı nəşr olunaraq, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, oxuculara sədaqətlə xidmət edir. Mənəvi çırağımız olan qəzetimiz həmişə Sizə arxalanmış, Sizdən ilham almışdır.

"Gürcüstan" qəzeti öz səsi, sözü ilə sələflərin mübariz ruhunu, həmişə-yaşar ənənələrini qoruyub saxlayır və beləliklə, aybaay, ilbəil, nəsilbə-nəsil Gürcüstan azərbaycanlılarının həyat salnaməsiniyaradır, mənəvi dəyərlərimizin zənginləşməsinə töhfələr bəxş edir, milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi, dilimizin saflığının keşiyində qürur-la dayanır. Qəzetimiz 2020-ci ilin mart ayına qədər 2000 nüsxə ilə nəşr olunurdusa, hal-hazırda qəzetin yayım coğrafiyası genişlənmiş, abunə sayı 55 faiz artaraq, 3100 nüsxəyə çatmışdır. Bir əsrdən çox ömrü olan "Gürcüstan" qəzetini yaşatmaq hər birimizin mütləq mənəvi borcudur. 2025-ci ildə "Gürcüstan" qəzetinə abunə olmaq istəyən şəxslər-fərdi abunəçilər (adını, soyadını və ünvanını göstərməklə), məktəblər, idarə, müəssisə və təşkilatlar yer-lərdə qəzetin müxbirləri ilə və ya **E-mail:Gurcustan_1921@mail.ru** elektron poçtu vasitəsi ilə müqavilə bağlamaqla abunə haqqını qəzetimizin səkkizinci səhifəsində göstərilən bank hesabına köçürə bilərlər.

"Gürcüstan" qəzetinə illik abunə haqqı 20 (iyirmi) laridir. İl ərzində abunəçiyə həftədə bir dəfə olmaqla 50 (əlli) qəzet təqdim ediləcək.

***Milli - mənəvi dəyərlərimizi yaşadan, dilimizin keşiyində duran, varlığımızın göstərcisi olan "Gürcüstan" qəzetini yaşatmaq və ondan bəhrələnmək üçün abunə olmağı unutmayın.***

Qəzetimizə il boyu abunə ola bilərsiz. Abunə müddəti ödəniş tarixindən başlanır. "Gürcüstan" qəzetinin qayğıkeş, əməksevər kollektivi Sizin xidmətinizdə dayanaraq, etimadınızı doğruldacaqdır.

Əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Qeyd:** Qəzetin abunəçiyə vaxtında çatdırılması təmin olunacaq.

**Müdiriyyət.**

**Qəzetin bank hesabı**
**გაზეთის საბანკო ანგარიში**
**შპს გაზეთ „გურჯისტანი" ს/კ 203863792**
**ანგ. № GE03LB0111185703773000**
**სს ლიბერთი ბანკი SWİFT: LBRTGE22**

Baş redaktor:
Xaləddin YOLÇUYEV

Redaktor müavini:
Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Akaki Tsereteli pros. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur.
Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.